# Bakıdan kuklalara düyü doldurub aparıblar

## "Peterburq teatr mövsümü"nün qastrolu başa çatıb



21-26 noyabr tarixlərində Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının səhnəsində gerçəkləşən "Peterburq teatr mövsümü" başa çatıb. Sankt-Peterburq Mədəniyyət Komitəsinin və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşan layihənin son günü qonaq kollektivlərdən "Kukla formatı" teatrı (KUKFO) "Al çiçək" nağıl-tamaşasını (iki seansda) təqdim edib.

Rejissoru və quruluşçu rəssamı Anna Viktorova olan tamaşada nağılçı Pelaqeya rolunu aktrisa Olqa Donets oynayıb. Tamaşaçılar Sergey Aksakovun məşhur nağılını balaqan – kukla formatında maraqla qarşılayıblar.

Nağılın folklor interaktiv variantı 2014-cü ildə KUKFO teatrı tərəfindən səhnələşdirilib və o vaxtdan bəri Sankt-Peterburqdan kənarda da dəfələrlə nümayiş etdirilib. 2015-ci ildə tamaşadakı işinə görə Olqa Donets Banqkokda keçirilən karnavalda "Ən yaxşı aktrisa" adına layiq görülüb.

Qeyd edək ki, tamaşada rus xalq üslubunda tikilmiş kuklalardan istifadə olunur. Nümayişdən əvvəl nağılçı Pelaqeya tamaşaçılara taxta, saman, parça kuklaları, amulet kuklaları və digər kuklaları da göstərib, onların təyinatı və simvolikası haqqında danışıb.

Tamaşadan sonra Olqa Donets təəssüratlarını AZƏRTAC ilə bölüşüb.

– Bizi teatrda çox gözəl qarşıladılar, doğma insanlar kimi. Bu, çox vacibdir. Çünki yeni bir yerə gələndə və heç nədən xəbərin olmayanda, düzgün hərəkət etmək çətindir. Burda isə bizə çox kömək edirdilər. Tamaşaçılardan da böyük rəğbət gördük. Bu da artistlər üçün ən xoş bir hissdir.

*– Qastrol üçün məhz bu nağılı nəyə görə seçmisiniz?*

– Çünki bu, hər şeydən əvvəl monotamaşadır. Dekorasiyalar asanlıqla iki çamadana yerləşir və onları istənilən yerə aparmaq olar. Biz bu tamaşanı dünyanın müxtəlif yerlərində oynamışıq, biz onu istənilən səhnədə və ya da küçədə oynaya bilərik – bu "Petruşka teatrı"na bənzəyir. Lakin bu tamaşanın eksklüzivi – onun kuklalarıdır. Çünki onlar xalqa aiddir və indi onların içində, yeri gəlmişkən, sizin Azərbaycan düyüsü var (gülür). Biz onu burada aldıq və kuklaları doldurduq.

*– Düyü hər dəfə yenilənməlidir?*

– Bəli, qastrollara gediriksə, kuklaları kiçik torbalar kimi nümayiş olunan ölkədə aldığımız yarmalarla yerindəcə doldururuq. İndi bu düyünü Peterburqa aparacağıq və onu orda yeyəcəyik (gülür).

*– Qastrollar zamanı Azərbaycan nağılları ilə tanış ola, yerli kukla teatrına gedə bildinizmi?*

– Təəssüf ki, proqram çox sıx oldu. Lakin biz şəhərin küçələrini gəzdik və sizin kukla teatrının afişalarını gördük. Bu mənə çox təsir etdi. Azərbaycan nağıllarının kuklaları çox maraqlıdır. Mən bu cür nağıl oxumamışam, lakin oxumaq istərdim. Düşünürəm ki, ola bilsin teatrımız üçün hətta Şərqə aid nəsə yaransın. Üstəlik, Azərbaycan artistləri bizi ziyarət etdilər və təcrübə mübadiləsi aparmaq imkanımız oldu. Mən bilirəm ki, sizin böyük kukla teatrınız var. Çox ümid edirəm ki, biz yenə gələcəyik və gələn dəfə Azərbaycan folklorunu tanımaq üçün daha çox vaxtımız olacaq.

Mədəniyyət .- 2023.- 29 noyabr, № 88.- S.3.